**Vergi ödəyicilərinə müasir xidmətlərin təşkili diqqət mərkəzindədir**

Vergilər Nazirliyinin «facebook»dakı rəsmi səhifəsi vergi ödəyicilərinin və ümumilikdə istifadəçilərin marağını təmin etmək üçün yeni layihəyə start vermişdir. Layihə çərçivəsində ölkənin tanınmış şəxsləri ilə görüntülü ünsiyyətin hazırlanması və səhifədə yayımlanması təmin edilir.

Nazirliyin Vergi ödəyicilərinə xidmət idarəsinin əməkdaşı Arif Ələkbər qəzetimizə müsahibəsində yeni layihə barədə ətraflı məlumat vermişdir.

***- Arif müəllim, Vergilər Nazirliyinin «facebook»dakı sosial şəbəkəsində həyata keçirilən «Face-Visit» layihəsinin məqsədi barədə nə deyə bilərsiniz?***

- Bu gün internet resurslarının imkanları, sosial şəbəkələr həyatımızın ayrılmaz hissəsinə çevrilib, informasiya mübadiləsi probleminə ciddi təsirini göstərib. Görünür, bunu nəzərə alan inkişaf etmiş dövlətlər idarəetmə sistemində bu resusların imkanlarından yararlanmağa başlayırlar. Bu proses respublikamızda da geniş vüsət alıb: müvafiq dövlət proqramları çərçivəsində ölkənin internetləşdirilməsi prosesi davam etdirilir.

İnformasiya-kommunikasiya texnologiyalarının müasir imkanlarından bəhrələnən Vergilər Nazirliyi də son illərdə vergi ödəyicilərinə elektron xidmətlərin genişləndirilməsi sahəsində ciddi tədbirlər həyata keçirib. Vergilər Nazirliyinin müasir tələblərə cavab verən rəsmi internet səhifəsi, «195» Telefon-məlumat xidmətinin fəaliyyəti, vergi ödəyicisi ilə vergi əməkdaşı arasında elektron əlaqələrin yaradılması və s. bunun bariz nümunəsidir. Vergilər Nazirliyi görülən bu işlərlə kifayətlənməyərək sosial şəbəkələrin imkanlarından da maksimum faydalanmağa çalışır. Təxminən 1 il əvvəl «Facebook» sosial şəbəkəsində Vergilər Nazirliyinin rəsmi səhifəsinin yaradılması da bunun bariz nümunəsidir. Hazırda bu səhifənin 7500-dən çox üzvü var. Məqsəd isə vergi ödəyicisinə, vətəndaşa vacib informasiyanı ötürə bilməkdir.

***- Sizcə, «Face-Visit» bu məqsədə nail olmaq üçün vasitə rolunu oynaya bilərmi?***

- Bu gün sosial şəbəkə istifadəçilərinin əksəriyyəti gənc nəslin nümayəndələridir. Biz bu detala xüsusi önəm verdik. Çünki gənclik daha çox əyləncəli maariflənməyə üstünlük verir. Azərbaycanda internet saytları inkişafa meyillidirlər. Tarixi, ədəbi, elmi, ictimai-siyasi və s. yönümlü müxtəlif adda internet saytlarına rast gəlmək mümkündür. Bu, olduqca maraqlıdır. İnsanların televiziyalara əlləri çatmayanda alternativ vasitələrdən istifadə edirlər. Əyləncəli verilişlərin içində də bəzən maarifləndirmə elementləri olur «Face-Visit»ə dəvət etdiyimiz tanınmış simalar həm də vergi qanunvericiliyi ilə bağlı konkret məsələ ilə bağlı fikirlərini söyləyir, vergi ödəyicisi olaraq vergi islahatları ilə bağlı şəxsi yanaşmalarını bölüşürlər.

***-Arif müəllim, verilişin formatı buna imkan verirmi? Vergi sisteminə aid olmayan tanınmış sima bu sahədə hansı maarifləndirmə işini apara bilər?***

- Format üzbəüz debat şəklində götürülən 20 dəqiqəlik müsahibədən ibarətdir. Müsahibə rəsmi simalardan qeyri-rəsmi ampluada aparılır. Qonağımızın kim olacağı ilə bağlı bir gün əvvəl istifadəçiləri səhifə vasitəsilə məlumatlandırırıq ki, ona ünvanlamaq istədikləri sualları çatdırmaq imkanları olsun. Beləliklə, tanınmış simalar öz izləyicilərinə müəyyən mənada vergi qanunvericiliyindən irəli gələn məsələlərlə bağlı bizim çatdırmaq istədiyimiz informasiyaları da ötürmüş olur. Məsələn, nağdsız ödənişlərin genişləndirilməsi, əmək müqavilələrinin imzalanması, alış-veriş zamanı çek tələb etmək hüququndan yararlanmaq və digər mövzular ətrafında söhbətlər aparılır.

Vergi ödəyicilərinin maraqlarını təmin etmək üçün cəmiyyətin tanınmış insanları ilə onların birbaşa ünsiyyətlərini yaratmaq, maraqlandıqları suallara cavabı məhz öz dillərindən almaq, eyni zamanda bu insanların vergi sisteminə, vergi qanunvericiliyinə olan maraqlarını təqdim etməyi planlaşdırdıq. Bunun üçün isə yayım imkanlarından yararlanmaqla, həftədə bir dəfə «facebook» sosial şəbəkəsindəki rəsmi səhifəmizdə tanınmış simalarla videoçəkilişlərimizi təqdim etmək qərarına gəldik. Yeri gəlmişkən, «Face-Visit»in ilk buraxılışında tək Azərbaycanda yox, həmçinin dünyada tanınan, görkəmli yazıçımız Çingiz Abdullayevlə səmimi söhbəti dinləmək mümkündür.

«Face-Visit»in bütün buraxılışları Vergilər Nazirliyinin «facebook» sosial şəbəkəsindəki rəsmi səhifəsində yerləşdiriləcəkdir. Buraya həm birbaşa ünvan (facebook.com/vergiler ), həm də Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin (taxes.gov.az) üst panelindəki xüsusi «facebook» keçidi vasitəsilə daxil olmaq mümkündür.

***- Yəqin ki, bu, gələcəkdə yeni ideyaların da yaranmasına təsir edəcək...***

- Sözsüz! Bu gün virtual məkanda sosial şəbəkələrlə yanaşı, blogerlik, internet televiziya və radio sahələri də inkişaf edib. Düşünürük ki, «facebook» səhifəmizdə Vergi Məcəlləsinin səsləndirilmiş versiyasını hazırlayaq, eləcə də cəmiyyət üçün maraqlı strateji suallara peşəkar cavabların audio və video cavablarından ibarət sujetləri ərsəyə gətirək.

S.MUSTAFAYEV